*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 fevral 2008-ci il tarixli 47 №-li qərarı ilə təsdiq edilmişdir.*

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 219 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vergi ödəyicisinə verilmiş vergi-hesab fakturası üzrə alınmış malların ( iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları"na əlavələr və dəyişikliklər edilməsi barədə**

Vergi ödəyiciləri tərəfindən əlavə dəyər vergisinin ödənilməsi proseslərinin sadələşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmiş "Vergi ödəyicisinə verilmiş vergi-hesab fakturası üzrə alınmış malların ( iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları"na aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə "dövlət büdcəsinə" sözlərindən sonra "və dövlət gömrük orqanlarının xəzinədarlıq orqanlarında açılmış müvafiq depozit hesabına" sözləri əlavə edilsin;

1.2. 1.4-cü bənddə "şəxsin (bundan sonra satıcı)" sözlərindən sonra "bank" sözü çıxarılsın;

1.3. 3.1-ci bənddə "dövlət büdcəsinə" sözlərindən sonra "və dövlət gömrük orqanlarının xəzinədarlıq orqanlarında açılmış müvafiq depozit hesabına" sözləri əlavə edilsin;

1.4. 4.2-ci bəndə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin və həmin bəndin üçüncü abzası dördüncü abzas hesab edilsin:

" – dövlət gömrük orqanlarının xəzinədarlıq orqanlarında açılmış müvafiq depozit hesabına;".

1.5. 4.6-cı bəndin 1-ci cümləsində "sub-uçot hesabından" sözlərindən sonra ", naməlum sub-uçot hesabından" sözləri, "dövlət büdcəsinə" sözlərindən sonra isə "və dövlət gömrük orqanlarının xəzinədarlıq orqanlarında açılmış müvafiq depozit hesabına" sözləri əlavə edilsin və həmin bəndə aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"Vergi ödəyicisi tərəfindən ƏDV sub-uçot hesabından dövlət gömrük orqanlarının xəzinədarlıq orqanlarında açılmış müvafiq depozit hesabına yük gömrük bəyannamələrinə uyğun olaraq idxal olunan mallara görə ƏDV ödənişi həyata keçirildiyi halda, Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən elektron formatlı ödəniş tapşırığında ödənişi aparan vergi ödəyicilərinin adı, VÖEN-i, dövlət gömrük orqanlarının xəzinədarlıq orqanlarında açılmış müvafiq depozit hesabının nömrəsi və ödəniş məbləği əks etdirilməklə bu Qaydaların 3.2-ci bəndində müəyyən edilmiş qaydada təqdim olunur."

1.6. Qaydalara 4 nömrəli əlavə yeni redaksiyada verilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Vergilər Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın və Azərbaycan Respublikasının Milli Bankına tövsiyyə edilsin ki, öz səlahiyyətləri daxilində bu qərardan irəli gələn məsələləri həll etsinlər.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**

**Baş naziri** **A.Rasi-zadə**

Vergi ödəyicisinə verilmiş vergi-hesab fakturası üzrə alınmış malların ( iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydalarına Əlavə N 4

Birincı tarix:___________ ikinci tarix:_______

*(manatla)*

| **Vergi ödəyici sinin adı** | **VÖEN** | **Birinci tarixin əvvəlinə qalıq** | **Mədaxil** | | **Məxaric** | | | **İkinci tarixin əvvəlinə qalıq** |
|---|---|---|---|---|---|---|---|---|
| | | | **Vergi ödəyicilə rinin bank hesabla rından** | **Vergi ödəyicilə rinin ƏDV sub-uçot hesabla rından** | **Vergi ödəyicilə rinin ƏDV sub-uçot hesabla rına** | **Dövlət büdcə sinə** | **Dövlət gömrük orqanla rının depozit hesabına** | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| **CƏMİ** | | | | | | | | |